Oktyabrın 27-də təhsil naziri Misir Mərdanov Amerika Birləşmiş Ştatlarının "PH international" təşkilatının ölkə üzrə direktoru cənab Keri Kosbi və təşkilatın icraçı direktoru xanım Ənn Martin ilə görüşüb.

Qonaqları salamlayan Misir Mərdanov qeyd olunan təşkilatın Azərbaycan təhsil sistemində informasiya kommunikasiya texnologiyalarının tətbiqi sahəsində həyata keçirdiyi proqram və layihələrdən danışıb. Ölkəmizin inkişaf etdiyini, təhsilə qoyulan sərmayənin gündən-günə artdığını vurğulayan nazir bildirib ki, yeni texnologiyalardan istifadə edərək müəllimlərin İKT bacarığını artırmaq, məktəblərin internetə çıxışını təmin etmək bu gün təhsil sistemində əsas istiqamətlərdəndir.

Səmimi qəbul üçün minnətdarlığını bildirən xanım Ənn Martin ölkəmizə ikinci dəfə gəldiyini, Azərbaycan barədə lazımi biliyə malik olduğunu qeyd edib. Ənn Martin Azərbaycanda yeni bir proqram üzərində işləməyi qərara aldıqlarını diqqətə çatdıraraq bildirib ki, yeni proqram internetdə müasir texnologiyaları şagirdlərə öyrədəcək.

Eyni zamanda, cənab Keri Kosbi də proqramın şagirdlərə amerikalı mütəxəssisin öyrədəcəyini qeyd edərək, hələlik bu layihəni bir neçə məktəblərdə tətbiq etmək fikrində olduqlarını və YUNİSEF-lə birgə işləyəcəklərini vurğulayıb.

Onu da qeyd edək ki, proqram Amerika Dövlət Departamenti tərəfindən maliyyələşdirilir. Proqram çərçivəsində layihədə iştirak edəcək azərbaycanlı uşaqların ABŞ-a dəvət olunması, eləcə də Amerikalı şagirdlərin ölkəmizə gəlməsi nəzərdə tutulur.

Görüşdə müvafiq proqramın tətbiqi üzrə işin daha da inkişaf etdirilməsi və digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.